# Qərbi Azərbaycanın tarixi, dini... zənginliyi, Zəngi və Vedi çaylarının hövzəsi

əvvəli səh: 18

**1920-ci ildən sonra hay kilsəsinin Azərbaycan dövləti üzərində növbəti qələbəsindən sonra Cənubi Azərbaycandan (Təbriz, Marağa, Ərdəbil mahallarından), Türkiyənin Qars, İqdır, Ərzurum vilayətlərindən, Suriyadan, Livandan, İraqdan, Yunanıstandan... köçürülən hay ailələri Vedibasar və Zəngibasar mahallarının boşaldılmış kəndlərində yerləşdirildi (bu vaxtadək hay sürüsü görməyən yerlərdə), onlar üçün yeni kəndlər salındı (Uluxanlı kəndinin münbit torpaqları hesabına yaranan 120-130 evli Yenikənd kəndi sonralar Novaguh adlanıb). Çünki, Qərbi Azərbaycanda məhsuldar torpaqların xeyli hissəsi və bir çox iri müsəlman-türk kəndləri Vedibasar-Zəngibasar mahallarının düzən ərazilərində, Ağrı dağının ətəklərində idi (Aşağı və Yuxarı Necili, Zəhmət, Qaraqışlaq, Reyhanlı, Dəmirçilər, Rəhimabad...).**

Uluxanlı kəndində yaşı 300 ildən çox olan 4 məscid, qədim hamam və qəbirstanlıq var idi. 1950-1960-cı illərdə İrəvan şəhərində hayların sayını artırmaq üçün tikinti işlərini genişləndirilməsi Zəngi çayı yataqında qum-çınqıl yataqlarının (20 km aralıda) intensiv istifadəçiliyinə, İrəvan-Uluxanlı yolunun məqsədli genişləndirilməsi isə yol kənarındakı məscidin sökülməsinə, yerlə-yeksan edilməsinə səbəb oldu. Həmin məscidlərlə yaşıd olan qəbirstanlıqdakı at, qoç, buğa, dəvə şəkilli qəbir daşları, əski yazılı və naxışlı sənduqələri də hay keşişləri İrəvan və Üçmüəzzin şəhərlərinə apardılar, o illərdə. Bu cür qədim qəbirstanlıq 1935-ci ildən sonra Zəhmət adlandırılan əski Haçaparaq kəndində də salınmışdı.

1918-1920-ci illərdə hay-daşnak quldurları Vedibasar-Zəngibasar mahallarına qarşı amansız hücumları Osmanlı Türkiyəsinin ərazisində daha çox məskunlaşdıqları Qars və İqdır vilayətindən edildi (Araz çayını keçməklə). Onlar qarşı kəndlərdə dinc əhalini güllələbaran edir, mal-mülkü qarət edir və tikililəri yandıraraq ötüb keçirdilər. Uluxanlı kənd sakini Fizzə Məhəmməd qızının (1870-1976) söyləməsinə görə, azğınlaşmış düşmən 1918-ci ilin yazında 50-60 nəfərlik dəstə ilə kəndlərə (Aşağı və Yuxarı Necili, Həbilkənd, Reyhanlı, Muğanlı...) hücum etdikdə xilas üçün camaat Uluxanlıda sığınacaq tapdı, aradan bir xeyli keçmiş kəndə bir dəstə hərbi atlı daxil oldu, onlar türklər idi (onlara "ağıyekələr" deyirdik), daşnakları təqib edirdilər. Bu döyüşlər zamanı türk əsgərləri əsasən ağartı və yayma çöreklə qidalanırdı. Türk nizami heyəti ilə birlikdə haylara qarşı kəndin Məhərrəmoğlular, Qorxmazlılar, Oruclular, Həbillər, Elatlılar, Qəssab Əli oğulları... tayfalarından təşkil edilmiş özünümüdafiə dəstələri də düşmənə qarşı mərdliklə vuruşmuşlar.

Haylar qovulduqda və əhali kəndə qayıtdıqdan sonra türklər bizə dedilər ki, bu ermənilər sizi aman vermeyəcəklər, sizi rahat yaşamağa qoymacaqlar, gəlin bizimlə gedək Türkiyəyə. Kəndin ağsaqqalı Həsən Hüseyn oğlu onlara bildirdi ki, bu yerlər bizim ulu dədəbaba ocaqlarımızdır, onu tərk edib başqa yerə gedə bilmərik...

1919-cu ilin yay aylarında başqa bir daşnak quldur birləşməsi Ərzurum mahalından keçərək kəndlərə hücum edəndə camaat 5 km aralıdakı Araz çayını keçərək Qars vilayətinə üz tutanları güllələbaran edirlər, bir neçə gün pusquda duran düşmən geri qayıtmaq istəyənləri də amansızlıqla qətlə yetirmişlər.

1920-1921-ci illərdə silahlı hay daşnakları Uluxanlı və ətraf kəndlərə yenidən basqınlar etdikdə, xeyli ailə Cənubi Azərbaycana, Türkiyənin Qars, Sarıqamış, İqdır vilayətlərinə köçüb (Həsən Hüseyn bəy oğlunun qohumları Müslüm, İbrahim və Yusif ailələri ilə birlikdə). Sonrakı illərdə onlarla heç bir əlaqə yaranmamışdır.

Bu illərdə boşalmış kəndlərdən biri də Uluxanlı kəndindən cənubqərbə 3 km aralı, Zəngi çayının sol sahilində yerləşən Muğanlı kəndi olub. Bu kəndin 20-yə qədər yurd yerinin divarları 1970-ci ilərədək qalırdı.

1960-cı ildə Uluxanlı kəndinin "Oruclular məhəlləsi"ndə Kamil Həsən oğlu Hüseynov (1924-2006) həyətyanı sahədə torpaq-qazma işləri aparanda həmin qanlı-qadalı illərə aid çoxlu sayda paslı güllə gilizləri, çürümüş tüfəg qundağı və lüləsi, hərbi paltar hissələri tapmışdır...

Çox təəssüf ki, hay kilsəsinin və quldur hay sürüsünün yüzilliklər boyunca xalqımıza qarşı Bütöv Azərbaycan hüdudlarında törətdikləri soyqırım siyasəti ilə bağlı bölgələrimiz də daxil olmaqla tarixi muzeylərimiz, qanlı hadisələrin baş verdiyi hər bir yerdə xatirə-məlumat lövhələri, əyani təsvir-təbliğat nümunələri yox dərəcəsindedir.

**(Yazının hazırlanmasında həm də Qərbi Azərbaycanın Zəngibasar nahiyəsinin Qulucan kənd sakini İzzət Məşədi Cəlil oğlu İsmayılovun (1952) və Uluxanlı kəndinin sakini Sabir Kamil oğlu Hüseynovun (1956) məlumatlarından istifadə edilib.)**